BTC sülhə, əmin-amanlığa, regional əməkdaşlığa xidmət edir

2002-ci ilin sentyabrın 18-də Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin və ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu.

BTC Ko.-nun səhmdarları: *BP(30,10 faiz); AzBTC (25,00 faiz); Şevron (8,90 faiz); Statoyl (8,71 faiz); TPAO (6,53 faiz); ENI (5,99 faiz); Total və ONGC (TBC) Limited 2,36 faiz) şirkətləridir.*

2015-ci ilin birinci yarım ili ərzində BTC üzrə əməliyyat xərclərinə təqribən 73 milyon dollar, əsaslı xərclərə isə 15 milyon dollar xərclənmişdir. Hazırda BTC-nin gündəlik ötürmə gücü hazırda 1,2 milyon bareldir.

1768 km uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyun ayından istismardadır. O vaxtdan bəri BTC vasitəsilə nəql edilmiş ümumilikdə təxminən 2,23 milyard barel (298 milyon ton) xam neft Ceyhanda təxminən 2940 tankerə yüklənmiş və dünya bazarlarına göndərilmişdir.Bu ilin birinci yarım ili ərzində BTC vasitəsilə təqribən 18 milyon ton (135 milyon barel) xam neft ixrac olunub və bu neft Ceyhanda 188 tankerə yüklənib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Türkmənistan və Qazaxıstan nefti də nəql olunur.

Artıq Bakı-Tbilisi-Ceyhan region ölkələrin və xalqlarına faydalar gətirməkdə, sülh, əmin-amanlıq kəmərinə çevrilməkdədir. Məlumdur ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi mərasimində Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevlə yanaşı, Türkiyənin keçmiş prezidenti Əhməd Necdət Sezer, Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, ABŞ-ın energetika naziri və digər yüksək vəzifəli şəxslər iştirak edirdi. Bu möhtəşəm tədbirdə ölkəmiz barədə səslənən dəyərli fikirlər çox nikbin proqnozlara əsas verirdi. Bütün bunlar bir daha göstərirdi ki, BTC-nin təməlqoyma mərasimindən sonra hər üç ölkədə çox mühüm işlər görülmüşdü. Bu irimiqyaslı layihənin reallaşmasının böyük əhəmiyyətini gözəl dərk edən ölkə başçılarının böyük dəstəyi də öz rolunu oynamışdı.

Möhtərəm Prezidentimiz İlham Əliyev öz çıxışında demişdi ki, "BTC ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır.

Eyni zamanda, bütün bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də bu layihə öz töhfəsini verəcəkdir. Təəssüflər olsun ki, regionda sülh və təhlükəsizlik hələ də tam mənada bərqərar olunmayıbdır. Biz ümid edirik ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bu baxımdan da bizə kömək edəcəkdir".

Qızıl Qaynaq mərasiminda həmçinin o da qeyd olundu ki, həm Gürcüstanda, həm Azərbaycanda, həm də Türkiyədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi istiqamətində böyük işlər görülmüşdür. "Bu layihə, ümumiyyətlə, bütün dünyaya sübut edir ki, regional əməkdaşlıq hansı formada həyata keçirilməlidir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər enerji layihələri dünyanın ən böyük layihələridir" —deyən ölkə başçısı İlham Əliyev eyni zamanda regional əməkdaşlığını konturlarını da aydın görür, məmləkətimizin strateji maraqlarını nişan verirdi. Əlbəttə, bizim bütün uğurlarımız gələcək əməkdaşlıq prosesinə müsbət təsir edəcəkdir. Regional əməkdaşlıq daha da gücləndəcəkdir.

Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili öz çıxışlarından birində deyib: "Mən iftixar hissi ilə xatırlayıram ki, müstəqilliyimizin ilk illərində biz, həqiqətən, çiyin-çiyinə bir-birimizə yardım göstərdik, qarşımıza çıxan çətinliklərə birlikdə aradan qaldırdıq. Bu layihənin həyata keçirilməsində cənab Heydər Əliyevin xüsusi rolunu qeyd etmək istəyirəm. Heydər Əliyev Bakıya qayıdanda böyük imkanlar yaradılmışdır. Tərəflərin hər biri ilk növbədə regional əməkdaşlığı, öz mövqeyini, mənafeyini qorumaqdadır.

Gərgin, məqsədyönlü işlərin nəticəsi olaraq, "Əsrin müqaviləsi" imzalandı. İlkin variantda ABƏŞ-ə 11 xarici neft şirkəti daxil oldu: BP, Amoko, "Yunokal" "LUKoyl", "Statoyl", "Ekson", TPAO, "Pennzoyl", "MakDermott", "Remko", DNKL.

"Əsrin müqaviləsi" imzalanandan bəri AÇG müqavilə sahəsində ən müasir platformalar quraşdırıldı. İndiyədək bu platformalardan AÇG-nin çıxarıla bilən ehtiyatlarının çox hissəsi hasil olunub. Mütəxəssislər bu ehtiyatların 5 milyard bareldən çox olduğunu isə çoxdan təsdiqləyiblər.

"Əsrin müqaviləsi" çərçivəsində görülən nəhəng işlər həqiqətən heyrətamizdir. Məsələn, indiyədək çıxarılan nefti dünya bazarlarına ixrac etmək üçün mükəmməl nəql infrastrukturu yaradılıb. Təkcə Bakı-Tbilisi-Ceyhan kəmərini misal gətirmək kifayətdir.

Bakıdan təxminən 55 kilometr cənubda dünyanın ən böyük terminallarından biri — regionun neft-qaz ixracı mərkəzi olan Səngəçal terminalı tikilib. Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu yenidən qurulub. Bibiheybətdə ən müasir dəniz qurğularının inşa edilməsi üçün ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsi yaradılıb.

"Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyatçısı olan BP şirkətinin baş icraçı direktoru Robert Dadli Bakıda keçirilən XXI Xəzər Beynəlxalq neft və qaz sərgisindəki çıxışında demişdir: "1997-ci ildən etibarən "Azəri-Çıraq-Günəşli" yataqlarından 2,5 milyard barel neft hasil olunubdur. Ötən 9 il ərzində həmin yataqlardan hasil edilən neftə dolu 2500 tanker Ceyhan terminalından yola salınmışdır. Biz 20 il ərzində tərəfdaşlarımızla birlikdə ölkə vətəndaşları ilə bağlı layihələrə 60 milyon dollar vəsait xərcləmişik. Keçən 10 il ərzində biz "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından 43 milyard kubmetr qaz hasil etmişik".

2015-ci ilin birinci yarısı ərzində AÇG layihəsinə təqribən 359 milyon dollar əməliyyat məsrəfləri və 949 milyon dollar əsaslı məsrəflər xərclənmişdir.

Birinci yarım ildə AÇG-də stabil hasilat davam etmişdir. Bu ilin altı ayı ərzində AÇG-dən ümumi hasilat — Çıraq (55 000), Mərkəzi Azəri (157 000), Qərbi Azəri (107 000), Şərqi Azəri (71 000), Dərinsulu Günəşli (145 000) və Qərbi Çıraq (106 000) platformalarından birlikdə —gündə orta hesabla 641 000 barel və ya ümumilikdə 116 milyon barel, yeni təqribən 16 milyon ton təşkil edib.

AÇG-nin illik iş proqramının bir hissəsi olaraq biz may ayında Qərbi Azəri platformasının planlaşdırılmış dayandırılması proqramını heyata keçirdik. Plana əsasən may ayında Qərbi Azəri platformasından hasilat təxminən 22 gün ərzində dayandırıldı ki, planlaşdırılmış profilaktik işlər, inspeksiya və layihə işləri effektiv şəkildə aparıla bilsin. Platformanın uzun müddət təhlükəsiz, etibarlı və ətraf mühitə zıyan vurmadan istismar qabiliyyətini davam etdirməsi üçün nəzərdə tutulmuş bu işlər tam təhlükəsiz şəkildə başa çatdırıldı.

2015-ci ilin birinci yarısında AÇG-də ümumilikdə 87 neft hasilat quyusu və 40 qaz və su injektor quyusu istismarda idi. Altı ayda AÇG-də doqquz neft hasilat quyusu və bir suvurma quyusu qazılmışdır. Birinci yarım ildə AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları" vasitəsilə gündə orta hesabla 11,4 milyon kubmetr, ümumilikdə isə 2,1 milyard kubmetr səmt qazı verilmişdir. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulmuşdur.

AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etmişdir.

Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barel neft və "Şahdəniz" qazı üçün təqribən 29,5 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 49,3 milyon standart kubmetr təşkil edir.

Qaz terminaldan əsasən Cənubi Qafqaz boru Kəməri (CQBK) və terminalın qaz emalı obyektləri ilə Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəməri ilə ixrac olunur.

Birinci yarım il ərzində terminal təqribən 154 milyon barel neft və kondensat, o cümlədən təqribən 135 milyon Bakı-Tbilisi-Ceyhan (BTC) vasitəsilə, 16,3 milyon bareldən artıq Qərb İxrac Boru Kəməri marşrutu (QİBK), təqribən 2,2 milyon barel dəmir yolu vasitəsilə və 0,9 milyon barel kondensat ixrac kəməri vasitəsilə, ixrac etmişdir.

Birinci yarım ildə terminaldan həmçinin gündəlik orta hesabla 28,8 milyon standart kubmetr (1 milyard 17 milyon standart kubfut) "Şahdəniz" qazı ixrac edilmişdir.

Bu gün Azərbaycanda şəffaflıq təcrübəsinə görə dünya üzrə birinci olan Dövlət Neft Fondu fəaliyyət göstərir. Onun vəsaiti Azərbaycanın hər bu günü, həm sabahı üçün mühüm əhəmiyyət kəsb edir.

Dövlət Neft Fondunun vəsaitlərindən su kəmərlərinin, suvarma kanallarının çəkilişi, mecburi köçkünlər üçün yaşayış evlərinin tikilməsi, bir sıra təhsil məsələlərinin həlli, ekoloji problemlərin yoluna qoyulması, alternativ enerji mənbələrinin yaradılması və s. məqsədlərlə istifadə olunub. Bunların həmisini gerçəkləşdirən iqtisadi imkanların bünövrəsində məhz "Əsrin müqaviləsi" dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə davam və inkişaf etdirilən yeni neft strategiyası Azərbaycanın böyük uğurlarının, yüksəlişinin təminatçısıdır.

BTC regiona əhəmiyyətli faydalar gətirməklə müsbət dəyişikliklər edəcək mühüm bir layihədir. Bosfor boğazından yan keçməklə kəmər neftlə bağlı nəqliyyatın labüd artımının qarşısını alar və bununla əlaqədar ətraf mühit risklərini azaldar, tranzit ölkələri üçün sanballı gəlirlər gətirmalidir. Azərbaycan, Gürcüstan, Türkiyə ilə Qərb arasında iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsinə kömək etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edir ki, "... 1994-cü il sentyabrın 20-də Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə Azərbaycanın gələcək inkişafı üçün çox mühüm rol oynamışdır. Həmin müqavilədən sonra Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilməyə başlamışdır. On illər ərzində aparılan bu strategiya ölkəmizə böyük uğurlar gətiribdir. Azərbaycan iqtisadi cəhətdən güclənmiş, öz müstəqilliyini daha da möhkəmləndirmişdir. İndi ölkəmizin iqtisadi inkişafı uğurla davam edir. Azərbaycanın bütün iqtisadi göstəriciləri onu göstərir ki, ölkəmiz inkişaf etir, güclənir və bu ənənə davam edəcəkdir".

"...Azərbaycanda mənim yaratdığım fabriklər, zavodlar, körpüler, metro, ... yaşayış evləri və sair çoxdur", — deyən ümummilli liderimiz Heydər Əliyevin milli lətimiz, xalqımız qarşısındakı xidmətlərini saymaqla qürtaran deyil. "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli fərmanında deyilir ki, tarixən Azərbaycanın iqtisadiyyatının özəyini neft-qaz sənayesi təşkil etmişdir və ölkəmizin ən böyük nəliiyyətlərindən biri bu sahədə qüdrətli elmi-texniki və kadr potensialının, geniş infrastrukturun yaradılması olmuşdur. Mahz bu sahə iqtisadiyyatın aparıcı amilinə çevrilmiş və onun inkişafına daim xüsusi diqqət yetirmişdir.

Respublikamızın tərəqqisi üçün taleyüklü əhəmiyyət daşıyan yeni, neft strategiyası və doktrinası uğurla həyata keçirilir. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra regionda ilk dəfə olaraq neft və qaz yataqlarımızın xarici şirkətlərlə birgə istismarına başlanmışdır. Apanlan işlər ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına, iqtisadi əlaqələrin genişləndirilməsinə güclü təkan vermişdir. Ümummilli liderimiz Heydər Əliyevin qayğısı sayəsində neft-qaz kompleksi apanlan iqtisadi və dövlət idarəetməsi sahəsində islahatlardan kənarda qalmamışdır. Belə ki, çox qısa bir zaman kəsiyində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədilə dəfələrlə onun strukturuna dəyişikliklər edilmiş, mövcud infrastruktur təkmilləşdirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin "Neftçilər günü" peşə bayramının təsis edilməsi haqqında 16 avqust 2001-ci il tarixli fərmanında deyilir: "1994-cü il sentyabrın 20-si imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktiki nəticələri göz qabağındadır. Həmin tarixdən başlayaraq görülən işlər bugünkü və gələcək nəsillərə xidmət edir".

Bəli, "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanda yeni neft strategiyası uğurla həyata keçirilməkdədir. Ötən onilliklər mühüm uğurlar qazanılmışdır. Yeni neft strategiyasının reallaşması istiqamətində irimiqyaslı işlər görülür. Möhkəm təməl, bünövrə üzərində məmləkətimiz inkişaf edir. Azərbaycan iqtisadi cəhətdən güclənir. Ölkəmizin iqtisadiyyatına, sənayesinə milyardlarla dollar sərmayə qoyulur. Bu hər şeyden əvvəl Azərbaycanda xarici sərmayələr, yatırımlar üçün gözəl investisiya mühitinin yaradılması ilə bağlıdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev demişdir: "BTC ölkəmizə yeni imkanlar yaradacaqdır. Xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır.

Eyni zamanda, bütün bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də bu layihə öz töhfəsini verəcəkdir. Təəssüflər olsun ki, regionda sülh və təhlükəsizlik hələ də tam mənada bərqərar olunmayıbdır. Biz ümid edirik ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri bu baxımdan da bizə kömək edəcəkdir".

Bu layihə yeni Şərq-Qərb enerji dəhlizini açacaq və ölkəmizi yalnız yerli ixrac imkanları olan orta miqyaslı neft hasilatı əməliyyatlarından beynəlxalq ixrac imkanlarına malik nəhəng neft istismarı əməliyyatlarına aparacaqdır.

2002-ci il sentyabrın 18-də keçirilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimi bütün dünyanın diqqətində idi. Azərbaycan Prezidenti Heydər Əliyevin, Türkiyə və Gürcüstanın dövlət başçılarının təməlqoyma mərasiminde iştirakı daim xatırlanacaq bir tarixi hadisəyə çevrildi. ABŞ-ın sabiq prezidenti Corc Buşun, Fransanın sabiq prezidenti Jak Şirakın, Böyük Britaniyanın və Norveçin baş nazirlərinin ulu öndər Heydər Əliyevin ünvanına təbrik məktubları, *həmçinin ABŞ-ın energetika nazirinin təməlqoyma mərasiminde iştirakı bu neft kəmərinin regional çərçivədən çıxaraq dünya iqtisadiyyatında böyük rol oynayacaq bir layihə olduğundan xəbər verirdi. Bu layihə eyni zamanda Amerika, Böyük Britaniya, Fransa kimi qüdrətli dövlətlərin Azərbaycanı bütün sahələrdə dəstəklədiyinin sübutuna çevrildi,*

Belə bir məsələni xüsusi qeyd etmək lazımdır ki, indi nəinki Cənubi Qafqazda və Türkiyədə, eləcə də bütün dünyada Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasının məhz ümummilli lider Heydər Əliyevin gərgin və cəsarətli səyləri ilə mümkün olduğu bütün dünyada təsdiq edilir. Təməlqoyma mərasimində çıxış eden Gürcüstanın sabiq prezidenti E.Şevardnadzenin dediyi:"Bakı-Tbilisi-Ceyhan Azərbaycanın dövlət başçısı cənab Heydər Əliyevin hünəri, onun neft strategiyasının parlaq qələbəsidir",—sözləri tək Gürcüstanın deyil, heç şübhəsiz ki, digər dövlətlərin başçılarının da fikrinin ifadəsi kimi səslənirdi.

Azərbaycanın, Cənubi Qafqazın və Türkiyənin, həmçinin bütün dünyanın maraqlarına xidmət eden Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri artıq neçə illərdir ki, sülhə, tərəqqiyə, regional əməkdaşlığa, ölkəmizin iqtisadi qüdrətinin artmasına xidmət etməkdədir.

Tofiq ƏBDÜLHƏSƏNLİ,
"Respublika".